Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
**Layihənin istiqaməti: "İctimai və dövlət maraqları"**

# Dağ ürəyi

## Tofiq Mahmud gözündəki işıq, könlündəki nəğmə ilə anılır



■ **Flora XƏLİLZADƏ**
*əməkdar jurnalist*

**İllər boyu dilimin əzbəri olan misraları həyatın təzadlarını elə dolğun və mənalı naxışlayıb ki, söylədikcə həqiqətin acılığı sinəmi göynədib:**

*Pislər mələk donuna,*
*Pislər çiçək donuna,*
*Bəzən elə bürünür,*
*Onların qarşısında*
*Yaxşılar pis görünür*

Allah sənə rəhmət eləsin, müdrik insan! Elə saf ürəyin, yumşaq təbiətin, səmimi ünsiyyətin var idi ki... Payızın bu yağışlı günlərində doğmaların ad gününü qeyd etməyə hazırlaşırlar. Məhəbbətlə anılırsan, şeirlərin söylənilir, zarafatların yada düşür. Xatirənə ehtiram olaraq mənim də əlimdən bu yazı gəldi. Ruhun şad olsun!

Saçlarına çox erkən dən düşmüşdü. Min ilin qocasına bənzəyirdi. Dünyasını dəyişəndə bildik ki, heç 65 yaşını da tamamlamadı şair Tofiq Mahmud. Həyat eşqli, güləruz, xeyirxah, qələm sahiblərinə həssaslıqla yanaşan, Vətəni ürəkdən sevən, torpağa bağlı, onun şəninə bir-birindən maraqlı şeirlər qoşan istedadlı şair, nasir, publisist, tərcüməçi idi Tofiq Mahmud. Vəfatından 18 ilə yaxın vaxt keçir. Üzüsoyuq torpaq da, uzun illərin ayrılığı da qəlblərdən xatirəsini silməyi bacarmayıb. 20 ildən artıq zaman kəsiyində redaktorluq etdiyi "Göyərçin" jurnalı indi də çıxır. Tez-tez balaca oxucuların görüşünə Tofiq babanın hekayə və şeirləri ilə qonaq gəlir. Cansağlığı ilə illəri yola verə bilsəydi, bu gün 84 yaşını tamamlayacaqdı Tofiq Mahmud.

O, 1931-ci il noyabrın 6-da qədim Naxçıvanın gözəl bir guşəsində - Şahbuz rayonunda anadan olub. Orta və ali məktəbi Bakıda bitirib. Mədəniyyət Nazirliyinin bir müəssisəsində işə başlayan Tofiq Mahmud sonralar "Azərbaycan müəllimi" qəzetinin müxbiri olub. Tale onu 1961-ci ildə "Göyərçin" jurnalının redaksiyasına gətirib. 15 ildən sonra isə ömrünün sonuna kimi bu jurnalın redaktoru vəzifəsində çalışıb.

O elə bir zamanda ədəbi mühitə gəlmişdi ki, Azərbaycan ədəbiyyatının tanınmış simaları - Səməd Vurğun, Rəsul Rza, Məmməd Rahim, Süleyman Rəhimov, Mehdi Hüseyn, Əli Vəliyev, Ənvər Əlibəyli, İslam Səfərli kimi sənətkarlarla görüşmək, onlardan məsləhət almaq qismətinə çıxmışdı. Xatirələrinin birində ömrünün o bəxtəvər günlərini xatırlayaraq yazırdı: "Yazıçılar İttifaqında keçirilən "Gənclər günü"ndə bir dəfə Səməd Vurğun iki şeirimdən birini bəyəndi. O vaxt uçmağa qanadım yox idi. Lakin sonralar başa düşdüm ki, həmin şeir çox zəifdir. Bəs böyük sənətkar onu nə üçün bəyənmişdi? Demə, Səməd Vurğun alicənablıq, insanlıq göstərmiş, qəlbimə dəymək, ruhdan salmaq, qol-qanadımı qırmaq istəməmişdi..." Elə bu xeyir-duanın da qədəmləri yüngül olub. İlk şeiri 1953-cü ildə "Azərbaycan" jurnalında işıq üzü görüb. Bununla da mətbuata yolu açılan Tofiq Mahmud ədəbi mühitin ən fəal qələm sahiblərindən birinə çevrilib.

O, poeziyanı həddən çox sevirdi. Onun üçün şeir aləmi ömrünün sonuna kimi möcüzə olaraq qaldı. Elə sağlığında 20-dən çox kitabı işıq üzü gördü. Amma yaradıcılığa olan ülvi münasibəti dəyişmədi. Ona elə gəlirdi ki, həyat poeziyasız solğun və mənasız görünər. Buna görə də qələmə sarılaraq "poeziyanı sevmək mənim üçün həyatı və insanları sevmək deməkdir" fikrini qətiyyətlə dilə gətirib. Hətta ona ünvanlanan "Şeir nədir" sualına da belə cavab verib: "Gözümdəki işıqdır, könlümdəki nəğmədir".

Bu işığın nuruna bürünərək Vətən gözəlliklərinə, onun qalalarına, abidələşmiş insanlarına, qəhrəmanlarına gözəl nəğmələr qoşdu. "Vətən" adlı bir şeirində oxuyuruq:

*Təkcə çəmən deyil, təkcə dağ deyil,*
*Solmayan əbədi çiçəkdir Vətən!*
*Təkcə dərə deyil, daş-torpaq deyil,*
*Cavanşir, Koroğlu, Babəkdir Vətən!*

Onun nəzərində Nizami, Xətai, Füzuli, Sabir kimi dühalar yetirən bir Vətən nə-



hənglərin nəhəngi idi. Xəzərin, Göygölün, Kəpəzin, Kürün, Arazın, Həkərinin gözəlliyindən vəcdə gəlib misralarını çələng kimi hörərək Vətənin boynuna dolayırdı. Dilində ən şirin nəğməyə dönürdü yurd yerlərimiz: "Zəmidir, tarladır, pətəkdir Vətən!". Gücünü, dayağını ana torpağın sinəsindən alan şair mərdlərlə, igidlərlə fəxr edirdi. Böyük məhəbbətlə, fəxarətlə and içirdi:

*Gücüm, dayağım mənim, ana torpağım mənim,*
*Sənə kəc baxanların gözünə batan oxam.*

Tofiq Mahmudun şeirlərində insan sevgisi dil açıb danışır. Təbiətin əşrəfi sayılan bu varlığın ünvanına müəllifin münasibəti sonsuz məhəbbətdən don geyib.

Alnıaçıq, başını şax tutub dəyanətlə yaşamağı bacaran Tofiq Mahmud rəzalətlə də üzləşmişdi, xəyanət də görmüşdü, ədalətsizliyin əzablarını da çəkmişdi. Amma ürəyi o qədər təmiz, kindən, küdurətdən uzaq idi. Şair oxucularına belə məsləhət verirdi: "Pislikləri unudun. Həmişə içinizdə xoş duyğular yaşadın". Bu baxımdan onun şeirlərinin əksəriyyətində bir müdriklik duyulur, insanı düşündürür: "Şöhrət pilləsini qalxanlar bəzən hörmət pilləsini qalxa bilməyir".

Çox dürüst və dəqiq bir fikirdir. Şair başına gələnlərdən sanki dərs alaraq xiffətlə söyləyib ki: "Boğazdan yuxarı hörmət, onun arxasında minnət görmüşəm". Ona görə də əsl hörməti qazanmaq çətindir - deyib. Əmrin, yumruğun, hökmün, şərin, şəbədənin, böhtanın, qərəzin sayəsində nə nüfuz qazanmaq olar, nə hörmətə sahib durmaq. Bir çiçək bitirənin, ağac əkənin hörməti daha çox olar, nəinki şöhrətin havasına uyub vəzifənin yaxasından bərk yapışanların.

Tofiq Mahmud poeziyamızın sıravi əsgəri idi. Özü demişkən, dahi olmasa da, qəlbi müdrik fikirlərlə dolu idi. Yolu hamarlıqdan, düzlükdən keçmirdi. Qarşısına çıxan kolluqların arasından belə öz cığırını salmağı, sözünü deməyi bacarırdı. Nə yazırdısa, mükəmməl alınırdı. Şair Məmməd Arazla yaxın dost idi. Bəzən bir yerdə əyləşərək könül dəftərlərini açardılar. Öz portretini də sanki şeirlərində misra-misra naxışlayaraq gələcək naməlum oxuculara yadigar qoyurdu. İndi bu şeirləri oxuyanda ağsaçlı Tofiq müəllimin - cəfakeş söz əsgərinin işıqlı portreti gözlərimiz önündə canlanır:

*Yatmasa da səngərə,*
*Bənzəyirdi əsgərə.*
*Ən ağır toplar kimi*
*Güclü idi qələmi.*
*Bu qələmin səsiylə*
*Titrədirdi aləmi!*

Onun özünəməxsus şeir deməyi də vardı. Qollarını elə geniş açırdı ki, sanki əlləri hər yana çatacaqdı. Başdan-ayağa duyğu, alov idi. Dalğası görünməyən dənizə bənzəyirdi. Sakit təbiətində hansı fırtınaların yatdığı yalnız şeirlərindən bilinərdi. Özü də bunu etiraf etməkdən çəkinməzdi: "Bəzən duyuram ki, nəhəng meşəyəm, bəzən də zərifəm, bir bənövşəyəm". Beləcə duyğuları selə dönərdi. Qələmindən süzülənlər isə gül kimi ətir saçardı, quş kimi cəh-cəh edərdi. Gah fırtınalı, gah sakit bir ovqatla yazıb yaradardı Tofiq Mahmud! Onun uşaqlar üçün qələmə aldığı şeirlər də yığcam, lakonik və maraqlıdır. Xüsusilə də "Qızımla söhbətlər" seriyasından yazdığı şeirlər kiçikyaşlı oxucuların bilik səviyyəsinə, dünyagörüşünə, maraq dairəsinə çox uyğundur. Bu şeirlərdə verilən suallarda uşaq təbiətinin sadəliyi, cavablarda isə şair müdrikliyinin çalarları görünür.

Tofiq Mahmudun lirikası da səmimi və təbii hisslərin poetik tərcümanı kimi diqqət çəkir. Yerin də, göyün də dəyişdiyi bir zamanda məhəbbətin əvvəlki təravətlə ürəkdə yaşamasının səbəbini sevginin müqəddəsliyinə, əvəzsizliyinə bağlayan şairin "çox şeyi unutmaq olar, təkcə məhəbbəti yox" söyləməsi rəngsiz yuxulardan, yelkənsiz duyğulardan, ümmansız arzulardan libas geyib. Bəzən də məhəbbət ünvanlı şeirlərində ömrünə payız ovqatı çökmüş şairin həsəd və xiffəti də boylanır:

*Heç öyünmə, Tofiq Mahmud,*
*Ha özünü gənc kimi tut,*
*Yaz çağını örtür bulud,*
*Qızlar sənə baxmır daha!*

Şairin yaradıcılığında ilhamla qələmə aldığı poemalar da xüsusi yer tutur. "Meşədə qalan nəğmə", "Üç qız", "Fırtına gözəlliyi", "Sədaqətli günlər" adlı poemalarda müəllifin duyğu və düşüncələri oxucuda olduqca xoş ovqat yaradır.

Həmişə gözəlliyi vəsf edən, ana yurdun şəninə şeirlər qoşan, qəlbi ülvi məhəbbətin eşqi ilə çırpınan şairin ətrafda müşahidə etdiyi nöqsan və qüsurlara, mənəviyyatsızlara öz baxışı, tənqidi münasibəti olub. Yalnız öz şəxsi mənafeyi üçün çalışaraq dostunu, tanışını bada verənlərə qarşı dərin nifrəti vardı Tofiq Mahmudun.

Bu cür təbiətin sahibləri haqqında çox lakonik, amma dürüst deyərdi: "Aynada olduğu tək görür ancaq özünü". Amma yaxınındakı insanın əzabına, çəkdiyi zülmə, fədakarlıqla çalışmasına əhəmiyyət vermir. Bu səbəbdən də işıqlı otaqlarda kölgə yaradanlar haqqında kinayə və ibarə ilə danışardı Tofiq Mahmud. Ədalətdən, həqiqətdən söhbət aça-aça tələbənin qiymətini kəsən müəllimi də özünəməxsus şəkildə şeirin dili ilə tənbeh etməyə çalışardı. Öz təbiəti humanist, qəlbigeniş olduğundan ona elə gələrdi ki, insan yalnız yaxşılıq və nəcibliklə yaşamalıdır. Bu səbəbdən də müşahidə edilən yaramazlıqlar qəlbini çox incidərdi, buna dözüm gətirməzdi. Həmkarları danışırlar ki, Tofiq Mahmud son dərəcə həssas və qayğıkeş idi. Millətindən, dinindən asılı olmayaraq, hər kəsə insan kimi yanaşardı. Ötən əsrin sonlarında bədnam ermənilərin Qarabağ "kartı"nı ortaya ataraq bizimlə torpaq iddiasına qalxması, soydaşlarımızı doğma ata-baba ocağından didərgin salması onun həssas ürəyinə ağır dərd gətirdi. Bəlkə də elə bu haqsızlığın mənəvi şəhidi oldu Tofiq Mahmud? Kim bilir? Şairlər həmişə ülvi arzularla, istəklərlə yaşayırlar. Qəfil gələn dərdin önündə zərif ürəkləri dözümsüz olur: "Başım üstə neçə yerdə hörümçək toru, bacarırsan, özözünü milçəkdən qoru".

Tofiq Mahmud bədii tərcümə ilə də müntəzəm məşğul olardı. Onun tərcüməsində Xuta Berulavanın "Quş südü", İsabəy İshakovun "Hər şeyi öyrənmək istəyən" kitabları oxucular tərəfindən maraqla qarşılanmışdı. Elə öz əsərləri də xarici dillərə tərcümə edilərdi. Poeziyaya özünəməxsus münasibəti vardı. Çox geniş mütaliəyə malik idi. Yaxından tanıyanlar bilirlər ki, o, bütün şairləri oxuyardı. Onun üçün böyük və kiçik şair meyarı yox, əsl şeir önəmli idi. Bəzən məşhur şairlərin yaradıcılığında tapa bilmədiyini hələ imzası tanınmayan istedadlı bir gəncin şeirində görəndə uşaq kimi sevinərdi. Elə bu təmizliyi, paklığı, qəlbgenişliyi də onu hamıya sevdirirdi. Tofiq Mahmud barəsində yaşlı nəsil də, ədəbiyyata ilk qədəmlərini atanlar da böyük məhəbbətlə, ehtiramla danışardılar. Çünki şair Məmməd Aslanın təbirincə söyləsək, Tofiq Mahmudun sinəsində dağ ürəyi çırpınırdı. "Təbiətin səsiyəm" adlı bir şeirində sanki həmişə xatırlanacağını, yada salınacağını bildiyindən belə yazırdı:

*İşığam, nəğməyəm, yağışam, qaram,*
*Bu dünya durduqca həmişə varam!*

Tofiq Mahmud, bu dünya elə sən görəndir! Heç nə dəyişməyib. Bütün rəngləri-əlvanlığı ağ-qara günlər yuyub aparmaqdadır. Yaxşı ki, sizin kimi şairlərin köhnəlməyən şeirləri var. Oxuduqca bir rahatlıq tapırıq. Ömrün əbədiyyəti bax elə budur!

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***